**Azərbaycan**. - 2024. - 14 avqust. - № 172. - S. 7.

# "Yaşıl fürsət..."

## COP29 Azərbaycanın turizm potensialını bütün dünyaya göstərəcək

**Züleyxa Əliyeva**

**Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ərəfəsində Azərbaycanın turizm sektorunda da canlanma var.**

COP29-la əlaqədar Bakıya gələcək qonaqlara ölkəmizin "yaşıl turizm" məkanlarını - qoruqları, milli parkları, eləcə də tarixi abidələri təqdim edən yeni turizm marşrutları hazırlanır.

Azərbaycan Turizm Bürosu İdarə Heyətinin sədr müavini Cavanşir Bayramov: "Bu marşrutlar bir çox COP29 iştirakçısının konfrans həftələri arasında keçirəcəyi boş vaxtdan maksimum yararlanması üçün nəzərdə tutulub. Artıq Azərbaycan hökuməti yeni mehmanxana tipli obyektlər tikir, həmçinin mövcud obyektləri modernləşdirir. Bakı ilə yanaşı, regionlarda da, xüsusilə Abşeron yarımadasında infrastruktur inkişaf edir". Cavanşir Bayramovun sözlərinə görə, ötən il Dubayda keçirilən COP28-dən sonra Bakıda baş tutacaq qlobal tədbirə daha böyük maraq var: "Bu, artıq hotel rezervasiyalarının sayında da görünür. Konfrans zamanı iki zonamız olacaq - mavi və yaşıl. Yaşıl zonada, həmçinin ətraf mühitin mühafizəsi çərçivəsində ölkənin turizm imkanları haqqında daha çox məlumat əldə etmək istəyən turistlər də iştirak edəcəklər".

Məlumat üçün bildirək ki, yaşıl zona müxtəlif maraqlı tərəflərin - dövlət və özəl sektor, media işçiləri, alimlər, gənclər, yerli icmalar, QHT-lər, vətəndaş cəmiyyəti və rəsmi mavi zona nümayəndələrini də əhatə edən geniş iştirakçı auditoriyasının bir araya gələrək ünsiyyət qura biləcəyi məkan deməkdir. Yaşıl zonanın təşkilində məqsəd iqlim dəyişmələri ilə mübarizə sahəsində dövlət qurumları ilə bütün maraqlı tərəflər arasında mühüm əməkdaşlıq əlaqələrinin qurulmasıdır. COP29-un sədrliyi tərəfindən təşkil və idarə olunan yaşıl zona müxtəlif iştirakçıların öz baxışlarını bölüşə bilmələri üçün dinamik platformadır. Mavi zona isə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının sessiyası (UNFCCC) tərəfindən idarə olunan rəsmi konfrans və danışıqlar məkanıdır. COP29 çərçivəsində təşkil olunacaq bütün rəsmi sessiyalar, iclaslar, paralel tədbirlər və mətbuat konfransları mavi zonada keçiriləcəkdir.

Azərbaycan üçün COP29-a evsahibliyi etmək həm də ölkənin turizm sənayesinin inkişafını stimullaşdırmaq üçün əlverişli fürsətdir. Qlobal tədbirin keçiriləcəyi günlərdə Azərbaycan qonaqlara turizm məkanı olaraq tarix və mədəniyyət abidələri ilə yanaşı, heyrətamiz təbiət mənzərələri, möhtəşəm yerlər təqdim edəcək. Həmçinin xalqımıza məxsus qonaqpərvərliyə xüsusi diqqət yetiriləcək, hər bir ziyarətçinin özünü rahat hiss etməsi və unudulmaz günlər yaşaması üçün hər cür şərait yaradılacaq. Turizm bürosunun sədr müavini bu barədə belə deyir: "Biz güman edirik ki, qonaqların yerləşdirilməsi bütün ölkə, xüsusilə də Bakı və Abşeron üzrə olacaq. Bu baxımdan təkcə görməli yerlər, əyləncələr, iaşə xidmətləri deyil, ümumilikdə bütün xidmətlərə çox yaxşı tələbat gözlənilir. Bundan sənaye faydalanacaq ki, bu da ölkə iqtisadiyyatına xeyli fayda verəcək".

Məlum olduğu kimi, Azərbaycan COP29 ərəfəsində növbəti dəfə "Formula 1" idman yarışmasına evsahibliyi edəcək. Həmin günlər Azərbaycana turizm axınının artması gözlənilir. Ona görə də təkcə hotellər və mehmanxanalarda deyil, "Sea Breeze"dəki yeni yaşayış kompleksləri, müxtəlif səviyyəli yerləşmə bazaları, Olimpiya kəndlərində hazırlıq işləri görülür. Bu, turizmin inkişafına çox böyük stimul verir.

Bəllidir ki, COP29 kimi qlobal tədbirlərin keçirilməsi yalnız nüfuzlu, təşəbbüskar, eləcə də sabit və təhlükəsiz ölkələrə həvalə edilir. Bu baxımdan COP29 kimi qlobal tədbirin ölkəmizdə keçirilməsi təsadüfi deyil. Amma COP29 həm də Azərbaycanda turizmin inkişafında böyük rol oynayacaq. Çünki COP29 turizm sektorunun potensialının sərgilənməsi üçün hər ölkəyə qismət olmayan bir şansdır. Biz də bu şansdan maksimum istifadə etmək üçün hamılıqla əlimizdən gələni əsirgəməməliyik.